**TƏSDİQ EDİRƏM**

**QKU-n icraçı prorektoru R.BAĞIROV**

29. XII. 2023 (Yeni protokol)

**QƏRBİ KASPİ UNİVERSİTETİ**

**TƏLƏBƏ İCMASININ**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Qərbi Kaspi Universitetinin Tələbə İcmasının Əsasnaməsi Tələbə İcmasının ümumi yığıncağındaa müzakirə olunur, üçdə iki (2/3) səs çoxluğu ilə qəbul olunur və Qərbi Kaspi Universitetinin Elmi Şurasında təsdiq edilir. Tələbə İcmasının Əsasnaməsinə əlavə və dəyişikliklər də bu qaydada qəbul olunur.

1.2. Tələbə İcması bu Əsasnamə əsasında fəaliyyət göstərən Qərbi Kaspi Universitetinin tələbələrinin özünü idarəetmə prinsipləri və sosial məsələləri ilə məşğul olurlar.

1.3. Tələbə İcması müstəsna olaraq Qərbi Kaspi Universiteti tələbələrini əhatə edir və təşkilat deyil. Tələbə İcması yerli və xarici Universitetlərin və onların tələbələri ilə qarşılıqlı əlaqələr yarada və fəaliyyət göstərə bilər.

## 2. Tələbə icmasının fəaliyyətinin əsas prinsipləri

2.1. Tələbə İcması Qərbi Kaspi Universitetinin tələbələrini təmsil edir və onların iradəsini ifadə edir.

2.2. Tələbələr arasında sorğular keçirir, onların fikir və arzularını öyrədib Elmi Şuraya, rektora və dekanlara təqdim edir.

2.3. Tədrisin təşkili və Universitetin tələbələrlə bağlı olan sənədlərin və Elmi Şuranın qərarlarını tələbə heyətinə izah edir və onların həyata keçirilməsində bilavasitə iştirak edir.

2.4. Tələbələrin hüquq və maraqlarını müdafiə edərək onlarla bağlı müxtəlif məsələlər barədə rektorun və Elmi Şuranın qarşısında vəsadət qaldırır.

2.5. Rektorluq və dekanlıqlarla idarə etmədə, tələbələrlə sıx əlaqə yaratmaqda köməklik edir.

2.6. Tədris prosesinin daha da təkmilləşdirilməsinə, onun keyfiyyətinin yüksəldilməsinə, Universitetin maddi-texniki bazasının zənginləşdirilməsinə dair təkliflər verir.

2.7. Tələbələrin problemləri ilə bağlı müxtəlif tədbirlər həyata keçirir.

2.8. Əcnəbi tələbələrin Universitetdə və ümumiyyətlə Azərbaycana uyğunlaşmasına kömək edir.

2.9. Tələbələr arasında müxtəlif sahələr üzrə yarışlar, müsabiqələr, elmi-əyləncəli oyunlar təşkil edir. Tələbənin asudə vaxtının səmərəli keçməsi üçün müxtəlif tədbirlər keçirir.

**3. Tələbə icmasına üzvlük. Üzvlərin hüquq və vəzifələri.**

3.1. Milli, siyasi, dini, irqi, cinsi mənsubiyyətindən asılı olmayaraq Qərbi Kaspi Universitetinin qeydiyyatdan keçmiş hər bir tələbəsi Qərbi Kaspi Universitetinin Tələbə İcmasının bərabər hüquqi üzvü sayılır.

3.2. Tələbə İcmasına üzvlük təhsil müddəti ilə məhdudlaşır.

3.3. Tələbə İcmasının üzvlərinin aşağıdakı hüquqları var:

3.3.1. Tələbə İcmasının bütün iclaslarında iştirak etmək;

3.3.2. Tələbə İcmasının qarşısında təkliflər irəli sürmək;

3.3.3. Tələbə İcmasında istənilən vəzifəyə seçmək və seçilmək;

3.3.4. Tələbə İcmasının fəaliyyəti haqqında məlumatlar əldə etmək;

3.3.5. Tələbə İcmasının Əsasnaməsinə əməl etmək və gördüyü işlərə məsuliyyət daşımaq.

**4. Tələbə icmasının büdcəsi**

4.1. Tələbə İcmasının büdcəsi onun fəaliyyəti nəticəsində cəlb etdiyi maliyyə vəsaitlərindən formalaşır.

4.2. Tələbə İcmasının büdcəsinə nəzarəti birbaşa idarə heyətinə tabe olan nəzarət-təftiş komissiya yerinə yetirir.

4.3. Nəzarət-təftiş komissiyası ümumi iclasda seçilir və 2/3 səs çoxluğu ilə təsdiq edilir.

**5. Xitam**

Tələbə İcmasının fəaliyyətinə xitam Qərbi Kaspi Universitetinin tələbələrinin ümumi iclası verə bilər. Bu qərarın qəbul olunması üçün ümumi iclas iştirakçılarının 2/3 səs çoxluğu kifayətdir.